# Məqsəd ölkəmizdə məhkəmə-hüquq islahatlarını sürətləndirmək və hüquq mədəniyyətini yüksəltməkdir

## Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin yaradılması qanun yaradıcılığı və hüquqi maarifləndirmə prosesinə mühüm töhfədir

***Son prezident seçkilərindən ötən 4 ildə aparılan sistemli islahatlar sosial sifariş amilinə söykənməklə, vətəndaşların arzu və istəklərini özündə ehtiva edir. Aparılan kadr dəyişikliklərinin, şəffaflığa, bürokratik amillərin aradan qaldırılmasına xidmət edən struktur islahatlarının, tətbiq olunan innovativ idarəetmə modellərinin başlıca mahiyyəti insan amilinin firavanlığına xidmətdir. İdarəetmənin şəffaflaşdırılması, dövlət aparatının yeni dövrün aktual çağırış və meyarları əsasında komplektləşdirilməsi iqtisadi, siyasi və hüquqi islahatların paralelliyini, ictimai münasibətlər sistemini tənzimləyən qanunverici bazanın müasirləşdirilməsini, bu məqsədlə çevik institusional mexanizmlərin formalaşdırılmasını zəruri edir.***



Dövlət başçısı İlham Əliyevin iştirakı ilə 2022-ci il martın 28-də Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzinin açılışı bir daha təsdiqlədi ki, mərkəzi və yerli icra orqanlarının fəaliyyətinin müasirləşdirilməsi istiqamətində atılan addımlar, ilk növbədə, vətəndaş məmnunluğuna yönəlib. Vətəndaşlarla dövlət qurumları arasında münasibətlərin açıqlıq, şəffaflıq və əlçatanlıq meyarları əsasında qurulması, insanlarda razılıq, yaxud da narahatlıq doğuran məsələlərin müəyyənləşdirilməsi, bir sözlə, insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə təmini yeni mərhələdə aparılan islahatların ana xəttini təşkil edir.

"Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin (HEQTM) yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 may 2022-ci il tarixli Fərmanı da məhz vətəndaş məmnunluğuna, insan hüquq və azadlıqlarının təminatına, hüquqi maarifləndirməyə, mükəmməl qanunvericilik bazasının formalaşdırılmasına xidmət edən islahatların uğurlu davamına etibarlı zəmin yaradır.

Müasir dövrdə hüquqi və demokratik cəmiyyətin əsas meyarlarından biri də ictimai münasibətlər sistemini tənzimləyən hüquqi bazisin mükəmməl şəkildə formalaşdırılması, qanunların aliliyinin bütün səviyyələrdə təmini, ictimaiyyətin dövlət idarəetməsində təsir imkanlarının yüksəldilməsidir. Fərmanın preambula hissəsində qeyd olunduğu kimi, HEQTM normayaratma fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi, dövlət orqanları (qurumları) əməkdaşlarının hüquq normalarının tətbiqi sahəsində bilik, bacarıq və səriştələrinin inkişaf etdirilməsi, hüquqi maarifləndirmə, hüquqi ekspertizanın keçirilməsi və hüquqi tənzimləmənin təsirinin qiymətləndirilməsi, qabaqcıl beynəlxalq təcrübə əsasında ölkədə hüquqi islahatlara dair təkliflər hazırlanması və bunlarla bağlı işlərin səmərəli əlaqələndirilməsi sahəsində fəaliyyət göstərəcək publik hüquqi şəxsdir.

Mərkəzin əsas fəaliyyət istiqamətlərindən biri ölkəmizdə ardıcıl şəkildə reallaşdırılan hüquqi islahatlara yeni təkan vermək, normativ hüquqi aktların layihələrinin hazırlanması və hüquqi ekspertizanın aparılması sahəsində dövlət orqanlarına (qurumlarına) xidmətlər göstərmək olacaq. Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinə əsasən, qanunvericilik təşəbbüsü hüququ (qanun layihələrini və başqa məsələləri Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim etmək hüququ) Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına, Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikası Prokurorluğuna və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə mənsubdur. Eyni zamanda, 2016-cı ilin 26 sentyabr tarixdə ölkə Konstitusiyasına edilmiş dəyişikliklər əsasında qəbul edilmiş 2019-cu il tarixli "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Qanuna əsasən, Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşı Milli Məclisdə qanunvericilik təşəbbüsü hüququ ilə çıxış edə bilər. Layihənin Milli Məclisin müzakirəsinə təqdim edilməsi üçün seçki hüququ olan 300 nəfər ölkə vətəndaşının təşəbbüs qrupu yaratması tələb olunur.

Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi qanunvericilik təşəbbüsü ilə çıxış etmək hüququ olan qurumların, eləcə də vətəndaş qrupunun hazırladığı qanun layihələrinin daha mükəmməl, beynəlxalq təcrübəyə, konvensiya və sazişlərə, konstitusiyaya uyğunluğunun monitorinqi, obyektiv rəy və təkliflərin verilməsini, bir sözlə, hüquqi ekspertizasını yüksək səviyyədə təşkil edəcək. Mərkəzin müstəqilliyi, digər qurumdan birbaşa asılı olmaması, fəaliyyətində elmi prinsiplərə söykənməsi onun qanun və digər normativ-hüquqi aktların hazırlanması prosesinə daha prinsipial müdaxiləsini təmin edəcək.

Hansısa dövlət qurumunun fəaliyyət çərçivəsinə müvafiq olaraq qanunlara əlavə və dəyişiklik edilməsi təklifləri ilə çıxış etmələrinin tez-tez şahidi oluruq. Etiraf etmək lazımdır ki, bəzən bu əlavə və dəyişikliklər cəmiyyətdə birmənalı qarşılanmır. HEQTM bu hallarda obyektiv yanaşma ortaya qoyaraq, yeni qanunların qəbulunu və ya mövcud qanunlara əlavə və dəyişikliklər edilməsini məhz vətəndaş mənafeyi baxımından əsaslandıracaq, məmur müdaxiləsi cəhdlərinin qarşısını alacaq.

Hər bir cəmiyyətdə qanunların düzgün işləməsi, icra intizamının təmin edilməsi bilavasitə insan amilindən, məmurların ədalətli yanaşmasından və yüksək bilik səviyyəsindən asılıdır. Bu baxımdan qanunların icrasına məsul olan və ya nəzarəti həyata keçirən dövlət qurumlarının əməkdaşlarının hüquqi yetkinlik səviyyəsinin, nəzəri-təcrübi biliklərinin yüksək olması son dərəcə vacibdir. Yeni mərkəzə normayaratma fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi, o cümlədən hüquq normalarının tətbiqi sahəsində dövlət orqanları (qurumları) əməkdaşlarının bilik, bacarıq və səriştələrinin inkişaf etdirilməsi məqsədilə təlimlər keçirmək hüququnun verilməsi qeyd olunan kontekstdə mühüm yenilik kimi dəyərləndirilməlidir. Mərkəz müvafiq dövlət qurumlarının əməkdaşlarının hüquqi sahədə maarifləmməsinə çalışmaqla, onların qanunları daha düzgün tətbiq etmələrinə yardımçı olacaq.

İnsan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, bu məqsədlə məhkəmə orqanlarının fəaliyyətində İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilərək tətbiqi son 20 ildə Azərbaycanda həyata keçirilən məhkəmə-hüquq islahatlarının əsas istiqamətlərindən birini təşkil edir. Xatırlatmaq lazımdır ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" 2006-cı il 19 yanvar tarixli Fərmanının 6-cı bəndində məhkəmə orqanlarına İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi və təcrübədə tətbiqi tövsiyə edilib.

Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin hüquq sahəsində bu və digər beynəlxalq təcrübəni təhlil etməklə, qüvvədə olan qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlaması təkcə qanun yaradıcılığı prosesinin keyfiyyətinə deyil, həm də respublikamızın beynəlxalq imicinin daha da yüksəlməsinə xidmət edəcəkdir.

Açıq cəmiyyət quruculuğu yolunu seçmiş Azərbaycanda vətəndaşların hüquqi təfəkkür səviyyəsinin yüksəlməsi baxımından hüquqi maarifləndirmə tədbirlərinin reallaşdırılması xüsusi diqqət mərkəzindədir. Cəmiyyətin hüquqi cəhətdən yetkin olması, insanların hüquq və azadlıqlarını adekvat dərk etməsi demokratik cəmiyyət quruculuğunun mühüm meyarlarındandır. Təsadüfi deyil ki, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinə normayaratma sahəsində maarifləndirmə işinin təşkilində iştirak etmək, o cümlədən hüquqi islahatların məzmunu və mahiyyəti barədə vətəndaşları məlumatlandırmaq, ictimai rəyi öyrənmək, müvafiq hüquqi aktların layihələrinə dair ictimai müzakirələr təşkil etmək hüququ verilib.

İctimai rəyin öyrənilməsi bütün dünyada idarəetməyə münasibətin real indikatoru kimi çıxış edir. Son illərdə dövlət idarəetmə sistemində başlanmış islahatlar cəmiyyətin bütün zümrələrinin həyat keyfiyyətinə pozitiv təsir göstərir. Bu isə öz növbəsində ölkədə sosioloji tədqiqatların daha da genişləndirilməsini, ictimai rəyi öyrənən yeni təsisatların yaradılmasını aktuallaşdırır. Bu baxımdan HEQTM ictimai rəyi öyrənməklə yanaşı, sosial sifariş amilinə əsaslanaraq, qanun və digər normativ-hüquqi aktlarda mütərəqqi ruhlu əlavə və yeniliklərin edilməsi təklifləri ilə çıxış edəcək. Aparılan sorğular vasitəsilə qanunlardakı boşluqlar müəyyənləşdiriləcək, yeni qanunların hazırlanmasında vətəndaş cəmiyyətinin nümayəndələrinin də iştirakı təmin ediləcək. Bundan başqa, mərkəzin dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və yerli qeyri-hökumət təşkilatları, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərməsi qanun yaradıcılığı prosesinin demokratikliyini, açıqlığını təmin edəcək, geniş ictimai müzakirələrə imkan yaradacaq.

Digər mühüm məqam həm elmi, həm təcrübi məqsədlər üçün hüquqi aktlardan, elmi-hüquqi materiallardan ibarət çoxfunksiyalı axtarış imkanını nəzərdə tutan elektron informasiya sisteminin yaradılması olacaq. İndiyə qədər hüquqi maarifləndirməyə xidmət edən bir sıra portallar, eləcə də e-qanun.az portalı yaradılıb və uğurla işləyir. Yaradılacaq yeni informasiya sistemi qanunlara, hüquqi-normativ aktlara və onların təfsiri ilə bağlı digər sənədlərə çıxış imkanlarını genişləndirəcək.

Mərkəzin nəzdində ixtisaslaşmış elmi tədqiqat institutunun fəaliyyətə başlaması aparılan araşdırmaların, hazırlanacaq və ya ekspertizadan keçiriləcək qanun layihələrinin elmi təhlilə əsaslanmasını təmin edəcək. Belə ki, fəaliyyətinin elmi təminatı, o cümlədən hüququn ayrı-ayrı sahələrinin müqayisəli hüquqi tədqiqi, məcəllələrə və digər normativ hüquqi aktlara elmi və praktiki şərhlərin hazırlanması məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının strukturuna daxil olan Hüquq və İnsan Haqları İnstitutunun HEQTM-in tabeliyinə verilməklə yenidən təşkili nəzərdə tutulur. İnstitut tərəfindən hüquqi tənzimləmədə innovativ həllərin araşdırılması, hüququn ayrı-ayrı sahələrinin təhlili, hüququn potensial inkişaf sahələrinin müəyyən edilməsi və həmin sahələr üzrə tənzimetmə modellərinə dair təkliflər verilməsi gözlənilir. Eyni zamanda, insan hüquq və azadlıqlarının təminatı sahəsində fəaliyyətin daha da səmərəli təşkili məqsədilə institut tərəfindən Avropa İnsan Hüquqları Məhkəməsinin presedentlərinin, o cümlədən Azərbaycan Respublikası ilə bağlı qərarlarının təhlil edilməsi və müvafiq təkliflərin verilməsi nəzərdə tutulur.

Bununla bərabər, mərkəz həm də hüquqi tədris və tədqiqlə məşğul olan bütün elmi müəssisələr və ali təhsil müəssisələri ilə əlaqələr yaratmaq, hüquq sahəsində peşəkar mütəxəssislər hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək və onların həyata keçirilməsində iştirak etmək vəzifəsini yerinə yetirəcəkdir. Bu vəzifənin ali təhsil müəssisələrinin elmi təfəkkürlü hüquqşünas kadrlarının hazırlanması ilə bağlı fəaliyyətinin keyfiyyət göstəricisinin yüksəlməsinə xidmət edəcəyi şübhə doğurmur.

Ölkəmizdə məhkəmə-hüquq islahatlarının müasirləşdirilməsi istiqamətində tədbirlər son illərdə daha da intensivləşib. Prezident İlham Əliyevin 2019-cu il 3 aprel tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı keyfiyyətcə yeni mərhələdə məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə geniş imkanlar açıb. Əminliklə demək olar ki, HEQTM-in bu fərmanla qarşıya qoyulan strateji məqsədlərin reallaşdırılmasına, məhkəmə-hüquq islahatlarının sürətləndirilməsinə və qanunvericilik əsaslarının möhkəmləndirilməsinə layiqli töhfələrini verəcək. Mərkəzin məhkəmə-hüquq islahatları istiqamətində aparılan islahatların daha da dərinləşdirilməsi üçün təkliflər verməsi də nəzərdə tutulur.

Qanun yaradıcılığı prosesinin yüksək səviyyədə təşkili hər bir ölkədə açıqlıq və şəffaflığın, korrupsiya hallarının qarşısını almaqla yanaşı, dövlət və yerli özünüidarəetmə qurumlarının fəaliyyətində çevikliyin, şəffaflığın təmin olunmasına, vətəndaş məmnunluğunun səviyyəsinin yüksəldilməsinə, büdcə vəsaitlərinə qənaət olunmasına zəmin yaradır. Bu mənada, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin yaradılması da Vətən müharibəsindəki Zəfərimizdən sonra ölkədə daha geniş vüsət almış müasirləşmə kursunun reallıqlarından irəli gəlir. Düşünürəm ki, HEQTM qısa müddətdə strukturlaşaraq, qarşısına qoyulmuş strateji məqsəd və vəzifələri uğurla reallaşdıracaq. Xüsusi vurğulamaq istərdim ki, Müşahidə Şurasının sədri təyin edilən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Gündüz Kərimov, eləcə də MŞ-nin digər üzvləri yüksək nüfuzlu peşəkar hüquqşünaslar olduğuna görə formalaşdırılan komandanın fəaliyyəti normativ hüquqi aktların hərtərəfli təhlilində, ümumiyyətlə, qanunyaratma prosesində yeni keyfiyyət dəyişikliklərinə səbəb olacaqdır.

***İsaxan VƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının müdiri, hüquq elmləri doktoru, professor***